Ədalət.- 2020.- 5 mart.- S.8



Müxəmməd Haqverdi

1952-ci ildə Cəbrayıl rayonunun C.Mərcanlı kəndində doğulub.1975-ci ildə BDU-nun mexanika-riyaziyyat fakultəsini bitirib. Orta məktəbdə müəllim işləməklə yanaşı, şeirləri mərkəzi mətbuat səhifələrində çap olunmuşdu. 4 kitab müəllifidir.

("Bu dərd mənə ağırdı", "Ömrün naxışları" və.s).

## Bir el məsəlinə

*" Araz axır,*
*"Gözün baxır"*
*Deyərdilər atam, anam.*
*Bu onların anlamında*
*Həyata bir baxış idi*
*Çalış idi,*
*Vuruş idi...*
*Yapacağım gələcəyin*
*Zirvəsinə naxış idi.*
*yollarımdan*
*Zülmət qovan işıq idi*
*Xoşbəxtliyə cəzb eyləyən*
*Üfüq idi.*
*O həyatı öyrənc idi.*
*O söz adlı*
*güvənc idi.*

## Anam Leylana

*Köçkün ana*
*Öz yurduna həsrətindən*
*Düşgün ana.*
*əllərini cütləyib,*
*Allahın dərgahına.*
*Aman umursan hər gün,*
*Ağsaçlı, ahıl ana.*
*İlahi, qüdrətlisən*
*yurd dərdimi dərəsən.*
*Zülmətli həyatıma*
*Ağ yol kimi gələsən.*

## Arzu

*Araz boyu, yollar bağlı-*
*Cəbrayıla, Zəngilana,*
*Qubadlıya*
*...On illərdir,*
*dözmür ürək.*
*Köçkünlüyə.*
*Biz qayıdaq*
*Düşmənlərə tapdaq*
*olmuş,*
*O yurdlara...*
*Gücümüzü göstərəyin*
*Yolumuzu*
*Silahlarla hasarlayan*
*O qurdlara*
*Şəhid olmuş,*
*El oğlunun,*
*El qızının*
*Ruhu bizi bağışlamaz ,*
*Yurddaşlarım!*
*Qorxulardan azad olub,*
*Qorxuları qorxutmalı*
*Canımızı o yurdlara*
*Həyat üçün,*
*Ömür üçün*
*Yaşatmalı.*
*Sonda yurdlar*
*Nəvazişlə, sevə-sevə*
*Qucar bizi.*
*Arzulanan Qələbənin*
*Xalq sevinci tapar bizi!*

## Çinarlı yuxum

*Şair V.Bayatlı Odərə*

*Cəbrayılın ulu çinarı,*
*Yuxuma gəldi bu gecə.*
*Yırtdı yuxumu çinarın*
*Nəhəng budağları,*
*Ayıldım!*
*Bir də yatdım,*
*Yuxuma gəldi.*
*Çinarı kəsib,*
*Doğrayıb aparıblar,*
*Ermənilər.*
*Çinarın kötüyündə oturdum,*
*Birdə yuxuladım,*
*Gördüm ki, ölmüşəm,*
*Məni torpağa basdırırlar.*
*Anam,*
*Qəfildən qışqırdı,*
*O səsə ayıldım!*
*Kaş heç ayılmayaydım*
*Öləydim çinarla !*

## Lirik etüd

*Səmada buludların*
*Naxışı,*
*Təzələnir hər gün,*
*Bir-birinə bənzəmir*
*Göylərin təbii ekranı.*
*İnsana əsrarəngizdir,*
*İlahinin rənglədiyi*
*Göylərin hər anı.*
*Tanrı düşündürür bizi,*
*Özünün*
*Üfüqdən-üfüqə uzanan,*
*Azman tablosuynan.*